# Qardaşlıq nümunəsi

**"Azərbaycan-Pakistan əməkdaşlığı tarixi köklərə bağlıdır. Ölkələrimiz arasında dostluq, qardaşlıq ənənələri uğurla davam edir, ildən-ilə möhkəmlənir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Tahir Rzayev deyib. Komitə sədri bildirib ki, bu gün iki qardaş dövləti nəinki iqtisadi, siyasi, mədəni, ticari əlaqələr, həmçinin mənəvi birlik, haqq, ədalət uğrunda mübarizə amalları birləşdirir. Pakistan dövləti ən çətin günlərdə Azərbaycanın yanında olduğunu göstərib. İstər torpaqlarımız işğal altında olduğu dövrdə, istərsə də 44 günlük müharibədə və 23 saatlıq antiterror tədbirlərində daim Azərbaycanın haqlı mübarizəsini dəstəkləyib və əlaqələrin daha da möhkəmlənməsinə daim diqqət yetirir. "Azərbaycan Pakistanla hərbi müdafiə sahəsində əlaqələrin genişlənməsinə daim önəm verir. Dövlətimiz bu ölkədən mənəvi dəstək almaqla ən yaxın dostunun olduğunu duyub və xalqımız bunun üçün daim öz minnətdarlığını ifadə edib. Azərbaycan torpaqları 30 ildən çox işğal altında qaldığı dövrdə bir çox dövlətlər ölkəmizə biganə münasibət göstərib, münaqişənin həllində nəinki dəstək verib, hətta haqlı mövqeyimizin əleyhinə gediblər. Ancaq Pakistan bu illərdə öz qətiyyətli sözünü deyərək daim dövlətimizin yanında olub", - deyə T.Rzayev əlavə edib.

Komitə sədri qeyd edib ki, iki ölkənin dövlət rəhbərlərinin sistemli görüşləri, vacib məsələlərin gündəmə gətirilməsi, həll yollarının axtarılması dövlətlərimizin uğurlarına zəmin yaradır. Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana səfərə gəldiyini diqqətə çatdıran komitə sədri deyib ki, səfər çərçivəsindəki görüşlər və imzalanan sənədlər bilavasitə xalqlarımızın daha da yaxınlaşmasına hesablanıb. Məhəmməd Şahbaz Şərifin Azərbaycan reallıqlarını yüksək qiymətləndirməsi və baş nazir olduğu dövrdə ölkəmizin uğurlarına dəstək verməsi, eləcə də Pakistanın mötəbər tədbirlərdə Azərbaycanın mövqeyini, haqlı mübarizəsini müdafiə etməsi qardaşlığı, dostluğumuzu möhkəmləndirir.

Hər iki dövlət rəhbərinin görüşünün xoş məramlara xidmət etdiyini vurğulayan T.Rzayev bildirib ki, bu gün Pakistan dünyanın ən böyük dövlətlərindən biridir və hərbi qüdrəti ilə fərqlənir: "Belə bir dövlətlə dostluq münasibətlərinin inkişafı Azərbaycan üçün çox əhəmiyyətlidir. Prezident İlham Əliyev Pakistanla dostluğa, əməkdaşlığa, bu xalqın Azərbaycanı müdafiə etməsinə böyük önəm verir və öz çıxışlarında Pakistanın mövqeyini bir nümunə kimi dəyərləndirir. Dostluğa, qardaşlığa, mənəvi birliyə əsaslanan strateji münasibətlər uzunömürlüdür. Pakistanın Baş nazirinin Azərbaycana budəfəki səfəri də özünün uğurları, nəticələri ilə dəyərli, əhəmiyyətli olacaq və hər iki xalqın gələcək inkişafına yeni yollar açacaq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.-25 fevral (№42).- S.8.